**Article Arrival Date**
**24.04.2024**

**Article Published Date**
**20.06.2024**

# BÖYÜK MÜTƏFƏKKİR VƏ DEMOKRAT M.F.AXUNDOVUN YARADICILIĞININ AZƏRBAYCAN REALİST ƏDƏBİYYATINDAKI ROLU

THE ROLE OF THE GREAT THINKER AND DEMOCRAT M.F. AKHUNDOV'S WORK IN THE REALIST LITERATURE OF AZERBAIJAN

**Dr. ULKER BAHSIYEVA**

ADPU-nun Filoloji fakültesinin, Edebiyatın tedrisi teknolojisi bölümünün baş öğretim üyesi,
ORCID İD 0000-0002-5994-2356

## ÖZET

M.İbrahimov 1962-ci ildə yazdığı "Xalq üçün döyünən ürək" adlı məqaləsində M.F.Axundovla bağlı görüşlərini genişləndirərək onu materialist filosof, ateist, Azərbaycanda materialist estetikanın banisi, realist və demokratik ədəbiyyatın mühüm nəzəri qanunlarını hazırlayan şəxs kimi təqdim edir.M.İbrahimov görkəmli dramaturqun 1850-1855-ci illər arasında yazdığı altı komediyada ictimai zülmə, orta əsr həyat tərzinə kəskin nifrəti müxtəlif obrazlar vasitəsilə bildirdiyini qeyd edir. M.İbrahimov M.F.Axundov yaradıcılığında ictimai çağırışın olduğunu və bu çağırışın xalqın oyanmasında mühüm rol oynadığını qeyd edir. Lakin M.İbrahimov M.F.Axundovu yalnız çağırışçı kimi qələmə vermir, onu həm də xalqları zülm, gerilik və cəhalətdən qurtulmaq yolunda birlik ideyasını ortaya atan demokrat, maarifçi-realist sənətkar hesab edir.



**Açar sözlər:** M.İbrahimov, M.F.Axundov, cəhalət, tərəqqi, maarifçi

## ABSTRACT

In his 1962 article entitled "A Heart That Beats for the People", M.Ibrahimov expanded his views on M.F.Akhundov and presented him as a materialist philosopher, an atheist, the founder of materialist aesthetics in Azerbaijan, and a person who developed important theoretical laws of realist and democratic literature. M.Ibrahimov is an outstanding playwright. In the six comedies he wrote between 1850 and 1855, it is noted that he expressed his sharp hatred for social oppression and the medieval way of life through various characters. M.Ibrahimov notes that there is a social call in M.F.Akhundov's work and that this call plays an important role in the awakening of the people. However, M.Ibrahimov does not describe M.F.Akhundov as a convenor, he also considers him a democratic, enlightened-realist artist who brought forth the idea of unity in the way of liberating people from oppression, backwardness and ignorance.

**Keywords:** M.Ibrahimov, M.F.Akhundov, ignorance, progress, enlightener

## GİRİŞ

Akademik Mirzə İbrahimov M.F.Axundovun XIX əsr Azərbaycan ədəbiyyatındakı xidmətlərini yüksək qiymətləndirmişdir. Onun Azərbaycanda demokratik ideyaların, yeni ictimai fikrin, realist ədəbi cərəyanın yaranmasında əhəmiyyətli rol oynadığını vurğulamışdır.

M.İbrahimovun böyük mütəfəkkir-alim, yazıçı M.F.Axundovla bağlı görüşləri 1937-1938-ci illərdə yazdığı "Böyük demokrat" monoqrafiyasında və 1962-ci ildə qələmə aldığı "Xalq üçün

ISSN
3023-5480

döyünən ürək" elmi məqaləsində əksini tapır. Bildiyimiz kimi XX əsrin 30-cu illərindən başlayaraq M.F.Axundovun ədəbi-fəlsəfi irsinin tətbiqi əhəmiyyətli yer tutmağa başladı. "H.Hüseynov, M.Arif, M.Rəfili və F.Qasımzadənin tədqiqlərində ilk dəfə olaraq M.F.Axundzadə böyük ədib, ictimai xadim və mütəffəkir kimi səciyyələnir. Bu tədqiqlər sonrakı dövrlərdə yaranmış bəzi ədəbiyyatşünaslıq əsərlərinin bir növ əsasını təşkil edirdi" (11, 136). Nəzərə alsaq ki, M.İbrahimovdan təxminən üç il əvvəl M.F.Axundov irsini tədqiq edən alim Salman Mümtaz olmuşdur. (1) O zaman bu tipli məqalənin ədəbiyyatşünaslığımızdakı əhəmiyyətini dərk etmək çətin olmaz. Lakin M.İbrahimov ilk növbədə M.F.Axundovun ədəbi-estetik görüşlərini təhlil edir, sənətlə real ictimai həyatın yaxınlıq məsələsinə xüsusi toxunur. Bu kontekstdə o, M.F.Axundovun klassik şeirin bəzi cəhətlərinə etirazını, köhnə bədiilik meyarlarını rədd etməsini, yeni prinsiplər irəli sürməsini təhlil edir. Amma maraqlıdır ki, M.İbrahimov "Böyük demokrat" monoqrafiyasında ədəbiyyatşünaslığımızda həmişə gündəmdə olan M.F.Axundov və M.Füzuli probleminə toxunmur. Bu monoqrafiyada o, Azərbaycan ədəbiyyatının ayrı-ayrı mərhələləri fonunda M.F.Axundov mərhələsinə xüsusi diqqət ayırır və M.F.Axundovun, ədəbi-estetik görüşlərindən sonra onun dramaturgiyasına, "Kəmalüddövlə məktublarına" və "Aldanmış kəvakib" povestinə münasibət bildirir. M.İbrahimov onun yaradıcılığından danışarkən, "Kəmalüddövlə məktublarını" siyasi pamflet adlandırır, əsərdə "monarxiya və feodalizm əleyhinə mübarizənin əsaslı proqramının" verildiyini, "Aldanmış kəvakib"də "istibdad və monarxiya quruluşunun öldürücü tənqidə" məruz qaldığını qeyd edirdi (7, 31).

**YÖNTEM**

M.İbrahimov Axundov tənqidinin bu xarakterindən danışarkən iki mühüm cəhətə diqqət yetirirdi. M.F.Axundovun mütləqiyyət və monarxiya tənqidinin yalnız Şərqlə məhdudlaşmağını qeyd edən M.İbrahimov bu tənqiddən eyni zamanda rus çarizminə və qərbə də pay düşdüyü iddiası ilə çıxış edir: "Axundov nəinki çarizmə, hətta müəyyən dərəcədə idealizə etdiyi Qərb tərəqqisinə, burjua cəmiyyətinə də gözüyumulu yanaşmır, ona tənqidi münasibət bəsləyirdi. "Musyo Jordan"da Hatəmxan ağa deyir: "Biz aşkara peşkəş alırıq, onlar gizlin alırlar, biz hər zada inanırıq, onlar heç zada inanmazlar..." (7, 35). Lakin M.İbrahimovun Axundovun öz mühitinə olan tənqidi münasibətin çarizmə və qərbə nisbətən daha qabarıq planda verməsini doğma xalqı ayıltmaq məqsədindən irəli gəlməsi ilə əlaqələndirir. Axundovun Azərbaycan ədəbiyyatına ağıllı qadın surətləri gətirdiyini vurğulayan M.İbrahimov bu kontekstdə onun mütərəqqi-demokratik ideyalara yol açdığını söyləyir.

**BULGULAR**

M.İbrahimov 1962-ci ildə yazdığı "Xalq üçün döyünən ürək" adlı məqaləsində M.F.Axundovla bağlı görüşlərini genişləndirərək onu materialist filosof, ateist, Azərbaycanda materialist estetikanın banisi, realist və demokratik ədəbiyyatın mühüm nəzəri qanunlarını hazırlayan şəxs kimi təqdim edir. Qeyd edək ki, həmin ildə F.Qasımzadənin "M.F.Axundzadənin həyat və yaradıcılığı" adlı monoqrafiyası da çap olunmuşdur(11). Axundova münasibətdə hər iki müəllifin mövqelərində üst-üstə düşən məqamlar çoxluq təşkil edir. Lakin M.İbrahimov F.Qasımzadədən fərqli olaraq M.F.Axundovu daha çox realist sənətkar kimi təhlil etmişdir. Onun sənətinin ictimai-siyasi, nəzəri-estetik baxımdan araşdırılması da bu səbəbdən irəli gəlir. Axundov yaradıcılığının dinə münasibəti məxsusi olaraq marksist-leninçi estetikası ilə uyğunluğu barədə M.İbrahimov fikirlərinin sovet idealogiyası prinsipləri ilə üst-üstə düşməsi başa düşüləndir. Yəni sovet dönəmində tədqiqatçılar Axundovu ateist kimi qələmə vermiş, "bütün dinləri puç və əfsanə hesab etdiyini" xüsusi vurğulamışlar. Lakin M.İbrahimovun M.F.Axundova bir qədər fərqli münasibəti onu Şərq və Qərb konteksində təhlil etməsində, o cümlədən mütərəqqi ictimai görüşləri ilə materialist fəlsəfi görüşləri arasında üzvü əlaqədə təqdim etməsindədir. M.İbrahimov M.F.Axundov yaradıcılığında Şərq probleminin vacib problem kimi dayandığını önə çəkir. Bu

ISSN
3023-5480

sırada üç məsələyə xüsusi toxunur: zülm, gerilik və cəhalət. Şərq xalqlarının faciəsində onların Avropadan geri qalmasında bu amillərin dayandığını qeyd edən M.F.Axundov bütün fəaliyyətini Şərqin tərəqqisinə yönəltmişdir. Məhz bu cəhətləri təhlil edərkən M.İbrahimov M.F.Axundovun bədii yaradıcılığına, məktub və yazılarına, siyasi pamflet nümunəsi olan "Kəmalüddövlə məktubları"na daha çox istinad edir. Məsələn, Londonda "Müxbir" adlı qəzet çıxaran Əli Süavi Əfəndi ilə əlifba barədə münaqişəsini, "Əli Qulu Mirzəyə" məktubunda millət dərdlərinə əlac ilə əlaqədar mübahisəsini bunlara misal göstərmək olar. "İki nəfər osmanlı nazirinə məktubu"ndan gətirilən sitatda M.İbrahimov M.F.Axundovun bütün müsəlman dünyası üçün nə şəkildə narahat olduğunu dilə gətirir, müsəlmanların vəziyyətlərinin yaxşılaşdırılması yollarında düşüncələrinə yer ayırır. M.İbrahimov M.F.Axundov yaradıcılığında ictimai çağırışın olduğunu və bu çağırışın xalqın oyanmasında mühüm rol oynadığını qeyd edir. Lakin M.İbrahimov M.F.Axundovu yalnız çağırışçı kimi qələmə vermir, onu həm də xalqları zülm, gerilik və cəhalətdən qurtulmaq yolunda birlik ideyasını ortaya atan demokrat, maarifçi-realist sənətkar hesab edir. M.İbrahimovun probleminə ictimai-fikir cərəyanı konteksində yanaşması bir tərəfdən milli maarifçilik hərəkatı dairəsində məsələləri düzgün qiymətləndirməsini təmin edir, digər tərəfdən müxtəlif ədəbiyyatşünasların fikirləri ilə üst-üstə düşür(1;11; 12;4).

**SONUÇ**

M.İbrahimov görkəmli dramaturqun 1850-1855-ci illər arasında yazdığı altı komediyada ictimai zülmə, orta əsr həyat tərzinə kəskin nifrəti müxtəlif obrazlar vasitəsilə bildirdiyini qeyd edir: "Həm müəyyən ictimai ideallarla yaşayan, həm də fərdi insani xüsusiyyətləri ilə canlı, həyatı olan tiplər yaratmaqda Axundovun qələmi çox qüdrətlidir. Biz Hacı Qaranı, Müsyo Jordanı, Dərviş Məstəli şahı, Lənkəran xanının vəzirini, onun arvadlarını yadımıza salaq. Bunlar nə qədər inandırıcı, nə qədər təbii və canlı surətlərdir"(8, 5). M.İbrahimov bütün bunları M.F.Axundova məxsus obrazlı təfəkkürün gücü və təsiri ilə bağlayır. Maraqlıdır ki, obraz yaratmaq sahəsində Axundova məxsus bu cəhətlərin onun bədii əsərləri ilə yanaşı elmi-tənqidi və fəlsəfi əsərlərində də müşahidə olunduğunu qeyd edir və göstərir ki, M.F.Axundov müxtəlif ictimai tiplərin bədii surətlərini yaradarkən həmin obrazların timsalında mahiyyətə xidmət göstərən dolğunluğu tam təmin edə bilmişdir. Məsələn, M.İbrahimov filosof sənətkarın Cəmalüddövlə obrazında "cahil, quru, mollagünə" bir adamın, Nəsrəddin xan Mürşiddövlə obrazının simasında "bəşəriyyətin düşməni, despotun rəzil nökəri, mədəniyyət yolunun əngəli" olan bir şəxsin dürüst psixoloji ruhunun əks olunduğunu qeyd edir. Məsələyə bu cür yanaşmaq, M.F.Axundov yaradıcılığına bu şəkildə dəyər vermək M.İbrahimovun elmi-nəzəri səviyyəsinin yüksəkliyini təsdiqləyir. M.İbrahimov ədəbiyyatşünaslıq görüşlərinin davamı olaraq M.F.Axundovdan sonrakı ədəbiyyatın inkişaf problemlərini də izləmiş və sonrakı mərhələdə Nəcəf bəy Vəzirov və Əbürrəhimbəy Haqverdiyev yaradıcılıqlarına xüsusi yer ayırmışdır. Hər iki sənətkarı Azərbaycan ədəbiyyatının siması və ədəbiyyatımızın M.F.Axundovdan sonrakı varisi hesab edir.



**KAYNAKLAR**


1. İbrahimov M. Əsərləri, 10 cilddə, I cild, Bakı: Yazıçı, 1978, 512 s.
2. İbrahimov M. Əsərləri, 10 cilddə, II cild, Bakı: Yazıçı, 1978, 504 s.
3. İbrahimov M. Əsərləri, 10 cilddə, III cild, Bakı: Yazıçı, 1979, 592 s.
4. İbrahimov M. Əsərləri , 10 cilddə, IV cild, Bakı: Yazıçı, 1979, 596 s.
5. İbrahimov M. Əsərləri, 10 cilddə, V cild, Bakı: Yazıçı, 1980, 339 s.
6. İbrahimov M. Əsərləri, 10 cilddə, VI cild, Bakı: Yazıçı, 1981, 376 s.
7. İbrahimov M. Əsərləri, 10 cilddə, VII cild, Bakı: Yazıçı, 1981, 332 s.

8. İbrahimov M. Əsərləri, 10 cilddə, VIII cild, Bakı: Yazıçı, 1981, 303 s.
9. İbrahimov M. Əsərləri, 10 cilddə, IX cild, Bakı: Yazıçı, 1982, 664 s.
10. İbrahimov M. Əsərləri, 10 cilddə, X cild Bakı: Yazıçı, 1983, 507 s.
11. İbrahimov M. Niyəsiz, necəsiz bir yazısan sən. Bakı: Yazıçı, 1985, 552 s.
12. İbrahimov M. Xəlqilik və realizm cəbhəsindən. Bakı: Azərnəşr, 1961, 524 s.
13. İbrahimov M. Ana dili – hikmət xəzinəsi. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1991, 136 s.